**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov 2009-cu il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş İbrahimov Tahir Həbib oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 169 saylı müraciətinin araşdırılmasına dair**

**R Ə Y İ**

Bakı şəhəri 9 yanvar 2010-cu il, saat 11.30

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 59 saylı Salyan seçki dairəsi üzrə Salyan bələdiyyəsinin üzvlüyünə namizədlər Abbaslı Tahir Allahverən oğlu, Hacıyev Vaqif Razaq oğlu, Davudzadə İbrahim Aslan oğlu, Axund Mirzağa Aprel oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək, Salyan bələdiyyəsinə keçirilən seçkilər zamanı dairə və məntəqə seçki komissiyaları, yerli icra hakimiyyətinin nümayəndələri tərəfindən qanunsuz hərəkətlərin edilməsini bildirmiş və qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında Mərkəzi Seçki Komissiyası qarşısında qaldırılmış vəsatət əsasında Mərkəzi Seçki Komissiyası araşdırmanın uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində dairə və məntəqə seçki komissiyalarının üzvüləri, seçilməmiş bələdiyyə üzvülüyünə namizədlər Tünzalə Əsədova, Paşa Nağıyev, Könül Əliyeva müşahidəçilər Səbinə Məmmədova, Aidə Səfərova, Əvəz Hüseynov, Şəfəq Misgərli, Zümrüd Mikayılova, Sərmayə Hüseynova, Yaqut Tahirova, Nifiti Nəcəfov, Nərminə Dadaşova, Balaxanım Soltanova, Arzu Hüseynova, Səbinə Rəcəbova, Raqiyyə Ələsgərova, Dildar Əliyeva, Sahib Nağıyev, Fəxriyyə Nəsibova, Aləmzər Sadıqova, Zabitə Səfərova, Xalidə Səkərova, Təranə Səfərovanın izahatlarından məlum olmuşdur ki, 59 saylı Salyan seçki dairəsi üzrə Salyan bələdiyyəsinə seçkilər Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələbinə uyğun keçirilmiş, səslər müşahidəçilərin iştirakı ilə sayılmış maraqlı şəxslərə protokolların surətləri verilmiş DSK-nın yekun protokolu vaxtında tərtib olunmaqla 3-cü nüsxəsi

məlumat lövhəsindən asılmış, arzu edən bütün seçki prosesində iştirak edənlərə verilmişdir. Yerli icra hakimiyyəti işçilərinin seçkilərə müdaxilə etməsi toplanmış sübutlarda öz təsdiqini tapmamışdır.

Beləliklə də, 59 saylı Salyan seçki dairəsinin Salyan bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə günü qanun pozuntularına yol verilməsi, həmçinin müvafiq dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və adıçəkilən Təlimatın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m**:

1. Vətəndaş Abbaslı Tahir Allahverən oğlunun və digərlərinin 26 dekabr 2009-cu il tarixli 169 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası
Mərkəzi Seçk Komissiyası
nəzdində ekspert qrupunun üzvü Tofiq Həsənov